# “Business Ready” (B-READY) – Tez-tez verilən suallar (FAQ)

| № | Sual | Cavab |
|---|---|---|
| 1 | Business Ready (B-READY) nədir? | Business Ready (B-READY), Dünya Bankı Qrupunun dünya üzrə biznes və investisiya mühitini qiymətləndirmək üçün həyata keçirdiyi yeni məlumat toplama və təhlil layihəsidir. Bu layihə, Dünya Bankı Qrupunun özəl investisiyaları təşviq etmək, məşğulluq yaratmaq və məhsuldarlığı artırmaqla iqtisadiyyatların inkişafını sürətləndirmək məqsədi daşıyan yeni strategiyasının əsas alətlərindən biridir. |
| 2 | Business Ready (B-READY)-nin əsas məqsədi nədir? | “B-READY”-nin əsas məqsədi inkişafda olan ölkələrdə özəl sektorun rolunu artırmaq və bundan irəli gələrək hökumətlərə tənzimləyici mühitin yaradılması üçün dəstək göstərməkdir.<br>“B-READY” özəl sektorun inkişaf etməsi üçün islahatları dəstəkləmək, xüsusi siyasət məsləhətlərinə dair məlumatlandırmaq və inkişaf siyasətinin tədqiqinin aparıla bilməsi üçün məlumatlar toplusu yaratmaq məqsədi daşıyır. |
| 3 | B-READY təşəbbüsünün arxasında duran əsas inkişaf məqsədləri nələrdir və bu təşəbbüs hansı qlobal strateji hədəflərə xidmət edir? | B-READY-nin maraq dairəsində özəl sektorun inkişafı və çiçəklənməsi dayansa da, əslində Dünya Bankı Qrupunun əsas strateji istiqaməti yoxsulluğun aradan qaldırılması və ortaq rifahın yüksəldilməsi hədəflərinə çatmağa yardımçı olmaqdır. |
| 4 | B-READY metodologiyası çərçivəsində mövzu üzrə məlumatların toplanması və qiymətləndirilməsi hansı əsas prinsiplər və struktur elementlər əsasında həyata keçirilir? | B-READY biznes mühitinin qiymətləndirilməsini 3 sütun üzrə həyata keçirir və hər bir mövzu üzrə məlumatları üç əsas sütun üzrə toplayır.<br>**Tənzimləyici Çərçivə** – Firmaların biznes açarkən, fəaliyyət göstərərkən və bağlayarkən riayət etməli olduqları qaydalar və tənzimləmələr.<br>**Dövlət Xidmətləri** – Tənzimləmə tələblərinə uyğunluğu dəstəkləyən imkanlar və biznes fəaliyyətlərini mümkün edən qurumlar və infrastruktur.<br>**Fəaliyyət Effektivliyi** – Şirkətlərlə birbaşa əlaqəli olan tənzimləyici uyğunluğun asanlaşdırılması və ictimai (dövlət) xidmətlərin səmərəli istifadəsi. Yəni tənzimləyici çərçivə və dövlət xidmətlərinin praktikada effektivliyini əks etdirir. |
| 5 | B-READY hesabatı (və ya qiymətləndirmə aləti) neçə göstəricini təhlil edir? | B-READY hesabatında mövcud olan hər bir alt kateqoriya bir sıra göstəricilərə malikdir. Bütün mövzular və sütunlar üzrə B-READY 1200-ə yaxın göstəricini təhlil edir. |

| | | |
|---|---|---|
| 6 | B-READY hansı mövzuları əhatə edir (və ya əhatə dairəsi nədir)? | B-READY özəl sektorun inkişafı üçün vacib olan 10 mövzu üzrə təşkil olunub və bir firmanın fəaliyyət dövrü ərzində – biznesin açılması, fəaliyyəti (və ya genişlənməsi) və bağlanması (və ya yenidən təşkil olunması) mərhələlərində bazarda iştirakını əhatə edir. Bu mövzular aşağıdakılardır:<br>• Biznesə giriş;<br>• Biznesin yerləşdiyi yer;<br>• Kommunal xidmətlər;<br>• Əmək;<br>• Maliyyə xidmətləri;<br>• Beynəlxalq ticarət;<br>• Vergitutma;<br>• Mübahisələrin həlli;<br>• Bazar rəqabəti;<br>• Biznesin müflisləşməsi. |
| 7 | "Business Ready" hesabatı telekommunikasiya sahəsini əhatə edirmi? | Bəli. Business Ready" hesabatı telekommunikasiya sahəsi üzrə internet xidmətini əhatə edir. |
| 8 | "Business Ready" hesabatı telekommunikasiya sahəsini qiymətləndirirmi? | Bəli. "Business Ready" hesabatının "Kommunal Xidmətlər" mövzusunun İnternet kateqoriyasının sorğu anketi internet telekommunikasiya xidmətini qiymətləndirir. |
| 9 | "Kommunal Xidmətlər" mövzusu neçə kateqoriyaya bölünür? | Kommunal Xidmətlər mövzusu 3 kateqoriyaya bölünür:<br>1) Elektrik;<br>2) Su;<br>3) İnternet. |
| 10 | "Business Ready" hesabatının "Kommunal xidmətlər (internet)" indikatorunun sorğu anketi neçə bölmədən (pillar) ibarətdir? | "Kommunal xidmətlər (internet)" indikatorunun sorğu anketi də digər mövzularda olduğu kimi 3 bölmədən (pillar) ibarətdir.<br>1) Kommunal xidmətlər (internet) üzrə tənzimləmələrin keyfiyyəti;<br>2) Kommunal xidmətlərin (internet) idarəetməsinin keyfiyyəti və şəffaflığı;<br>3) Kommunal xidmətlərin (internet) göstərilməsində əməliyyat effektivliyi (səmərəliliyi). |
| 11 | "Business Ready" hesabatının "Kommunal xidmətlər (internet)" indikatorunun sorğu anketi neçə sualdan ibarətdir? | "Kommunal xidmətlər (internet)" indikatorunun sorğu anketi 67 sualdan ibarətdir. |
| 12 | B-READY hesabatında mövzular hansı ümumi sahələr nəzərə alınaraq qiymətləndirilir? | B-READY hesabatında mövzular qiymətləndirilərkən 3 vacib sahə nəzərə alınır:<br>• Rəqəmsal mənimsəmə (tətbiq);<br>• Ətraf mühitin (ekoloji) davamlılığı;<br>• Gender. |
| 13 | B-READY məlumatları necə toplayır və yoxlayır? | • I və II Bölmələr (Pillar) üzrə məlumatlar özəl sektor mütəxəssisləri ilə məsləhətləşmələr yolu ilə toplanır.<br>Özəl sektor mütəxəssislərinə aidiyyəti sahələrdə çalışan hüquqşünaslarla yanaşı, tikinti şirkətləri, podratçılar, mühəndislər, mütəxəssislər, texniklər, şəbəkə memarları və mühəndislər kimi praktik sahədə fəaliyyət göstərən şəxslər daxildir. |

| | | |
|---|---|---|
| | | • III Bölmədə (Pillar), əlçatanlıq (affordability) ilə bağlı məlumatlar özəl sektor mütəxəssisləri ilə məsləhətləşmələr yolu ilə toplanır.<br>Qoşulma üçün tələb olunan vaxt və xidmətin etibarlılığı ilə bağlı məlumatlar isə Müəssisə Sorğuları (Enterprise Surveys) vasitəsilə əldə olunur. |
| 14 | B-READY hesabatları hansı tezliklə yayımlanır və hansı ölkələri əhatə edir? | B-READY hesabatları illik olaraq yayımlanır. B-READY hesabatının ilk üç nəşri tədricən dünya üzrə təxminən 180 iqtisadiyyatı əhatə edəcək. İlk hesabat 2024-cü ildə 50 iqtisadiyyatı əhatə edib.<br>Qiymətləndirməyə daxil edilmə meyarları aşağıdakılardır:<br>1) Əhalinin sayının azı 100 min nəfər olması;<br>2) B-READY metodologiyasına və prosedurlarına uyğun olaraq ekspertlərdən və müəssisələrdən məlumat toplanmasının mümkünlüyünün təmin edilməsi. |
| 15 | Azərbaycan B-READY hesabatında iştirak edirmi? | Bəli. Azərbaycan B-READY hesabatına daxil olan 180 ölkədən biridir. Azərbaycanın qiymətləndirilməsi 2025-ci ildə dərc ediləcək hesabatda əks olunacaq.<br>B-READY-2025 hesabatı 58 iqtisadiyyatı (ölkə) əhatə edir. |
| 16 | B-READY hesabatı Azərbaycana nə verir? | Ölkənin iqtisadi mühitinin şəffaf və sabit olduğunu göstərir. Bu da nəticə etibarilə investisiya cəlbediciliyinin artmasına və xarici investorların ölkəyə axınının təşviq olunmasına şərait yaradır.<br>Hansı sahələrdə islahatlara ehtiyac olduğunu müəyyən etməyə kömək edir.<br>Digər ölkələrlə müqayisədə Azərbaycanın güclü və zəif tərəflərini müəyyənləşdirməyə imkan verir. Bu da qlobal reytinqlərdə ölkənin mövqeyinin daha da yaxşılaşdırılması üçün əsas yaradır. |

*Mənbə:* https://www.worldbank.org/en/businessready

https://www.worldbank.org/en/businessready/about-us/faq